# 2018-ci il üzrə İnklüziv Təhsil Mərkəzi tərəfindən görülmüş işlər haqqında hesabat

## Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş inklüziv intellektual oyunlar –

***UNEC-də İnklüziv Təhsil Mərkəzi, Distant, Qiyabi və Əlavə Təhsil Mərkəzi və Tələbə Elmi Cəmiyyətinin birgə təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş inklüziv intellektual oyunlar viktorinası keçirilmişdir.***

Həmrəylik Gününə həsr olunan viktorinada UNEC tələbələri biliklərini sınayıblar. Gərgin mübarizə şəraitində keçirilmiş yarışda "UNEC team" komandası cüzi fərq ilə qalib olmuşdur.

Sonda iştirakçılar və qaliblər hədiyyələr və sertifikatlar ilə təltif olundular.

Bilik yarışının suallarını UNEC-in Rus İqtisad Məktəbinin direktor müavini Anar Eyyubov hazırlamışdır.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş inklüziv intellektual oyunlar (unec.edu.az)

## Azərbaycan tələbələrinin II qurultayı: UNEC tələbəsinin çıxışı alqışlarla qarşılanıb –

***Bü gün Təhsil, Gənclər və İdman nazirliklərinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində Azərbaycan tələbələrinin II qurultayı keçirilib.***

Qurultay iştirakçıları əvvəlcə Fəxri xiyabana gedərək ümummilli lider Heydər Əliyevin xatirəsini anıb, məzarı önünə gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər güllər düzülüb. Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə şəhid olan Vətən övladlarının xatirəsi anılıb, məzarları üzərinə güllər qoyulub.

Qurultayda Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, baş nazirin müavini Əli Əhmədov, təhsil naziri Ceyhun Bayramov, dövlət və hökumət nümayəndələri, millət vəkilləri, ali məktəb rektorları, təhsil ekspertləri, media qurumlarının rəhbərləri və tələbələr iştirak ediblər.

Mərasim Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın qurultay iştirakçılarına təbrik məktubunu Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva oxuyub.

Baş nazirin müavini Əli Əhmədov əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib. Əli Əhmədov qeyd edib ki, 30 yaşa qədər gənclərin sayı 4,6 milyon nəfərdir ki, bu da ölkə əhalisinin 46 faizinə bərabərdir. 24 yaşa qədər gənclər isə ölkə əhalisinin 1/3-ni təşkil edir.

Baş nazirin müavini tələbə-gəncləri daha yaxşı təhsil almağa, Azərbaycanın maraqlarını həmişə müdafiə etməyə, ölkənin ictimai-siyasi həyatında fəal rol oynamağa çağırıb və qurultayın işinə uğurlar arzulayıb.

Təhsil naziri Ceyhun Bayramov ölkədə həyata keçirilən təhsil və gənclər siyasəti barədə ətraflı məlumat verərək tələbə-gənclərin dövlətin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunduğunu bildirib. Nazir "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbul edilməsindən ötən 5 il ərzində ali təhsil sisteminin təkmilləşdirildiyini, universitetlərin kadr potensialı və maddi-texniki bazasının gücləndirildiyini, ali təhsilin əlçatanlığı istiqamətində mühüm addımlar atıldığını qeyd edib. Ötən dövr ərzində Azərbaycan Avropa Ali Təhsil Məkanının bərabərhüquqlu üzvünə çevrilib, ali təhsil müəssisələrinin fəaliyyəti Bolonya prosesinin tələblərinə uğunlaşdırılıb.

Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə Bakı şəhərində 800 yerlik ən müasir infrastruktura malik tələbə yataqxana kompleksinin inşasının başa çatdırıldığını deyən Ceyhun Bayramov bildirib ki, paytaxtda və regionlarda yeni yataqxana komplekslərinin inşası, Sumqayıt və Gəncə şəhərlərində mövcud yataqxana binalarının əsaslı təmiri və yenidən qurulması tələbələrin təhsil imkanlarının əhəmiyyətli şəkildə genişləndirilməsinə imkan verəcək.

Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) sədri Şahin İsmayılov qeyd edib ki, Azərbaycan dövlətinin gənclər siyasəti uğurla həyata keçirilir. Şahin İsmayılov tələbələrin ölkənin ictimai həyatında fəal iştirakında tələbə-gənclər təşkilatlarının da mühüm rol oynadığını bildirib. Hazırda ATGTİ 100 tələbə-gənclər təşkilatını özündə birləşdirir. Bu, Azərbaycanın bütün ali təhsil müəssisələrinin bir platformada təmsil olunması deməkdir.

Daha sonra Azərbaycan tələbələri haqqında hazırlanmış film nümayiş olunub.

Qurultay tələbələrin çıxışları ilə davam edib. Fiziki məhdudiyyətli olmasına baxmayaraq UNEC-in istedadlı tələbəsi Amin Fərəczadə, “Ali təhsil üçün bərabər imkanlar” mövzusunda çıxış edərək öz uğur hekayəsini bölüşüb. Olduqca təsirli çıxış Qurultay iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Tədbirin sonunda Azərbaycan tələbələrinin II qurultayının qətnaməsi qəbul olunub.

Qurultay tələbələrin ifasında hazırlanmış konsert proqramı ilə başa çatıb. Qeyd edək ki, hazırda Azərbaycanın ali məktəblərində bakalavr səviyyəsində 157 662, magistratura səviyyəsində 13 442, orta ixtisas təhsili müəssisələrində 51 819 tələbə təhsil alır.

Azərbaycan tələbələrinin II qurultayı: UNEC tələbəsinin çıxışı alqışlarla qarşılanıb

## Tədrisdə universal dizayn –

***"Azərbaycan müəllimi" qəzeti***

**İnklüziv təhsilin təkmilləşdirilməsinin yeni yolları**

“Pedaqogika insan inkişafının dünənki deyil, sabahkı gününə istiqamətlənməlidir”, -deyə müasir pedaqogika elminin banisi L.S.Vıqotski iddia edirdi.

Bu gün beynəlxalq əməkdaşlıq və elmi yanaşma nəticəsində bəşəriyyətin inkişafında zəruri mərhələ kimi inklüziv təhsilin tətbiqinin ümumi effektiv istiqamətləri işlənib hazırlanıb. İnklüziv təhsil sisteminin hərtərəfli inkişafı həm təhsil, həm də sosial, hüquqi və digər sahələrdə mövcud olan bir çox problemlərin həlli deməkdir. İnklüziv təhsilin əsas məqsədinin - bazasını inklüziv mədəniyyət təşkil edən əsl humanist cəmiyyətin yaradılmasına nail olmağa yardım edən inklüziya nəzəriyyəsinin effektiv strategiyasının axtarışı problemləri bir çox onilliklər elmi-pedaqoji tədqiqatların diqqət mərkəzində olmuşdur.

*İnkaredilməz faktdır ki, çox ölkələrdə cəmiyyət həyatının mədəni, sosial, iqtisadi və siyasi sahələrində radikal dəyişikliklər inklüziv təhsilin formalaşması və inkişafı üçün tarixi şərtlər hesab olunur. Bu dəyişikliklər sağlamlıq imkanları məhdud olan insanlara münasibətdə cəmiyyətin ideologiyasının, şübhəsiz, dəyişilməsi ilə fərqlənir. Cəmiyyət tərəfindən əlillik faktının qəbul olunması tədricən baş verib.*

Burada inklüziv təhsilin inkişafı tarixini qısaca olaraq açıqlamaq istərdik.

**İnklüziv təhsilin inkişaf tarixi**

İnklüziv təhsilin formalaşması və inkişafı haqqında xarici ədəbiyyatı tədqiq edərək bir neçə mərhələni ayırd etmək mümkündür. Ən uzunmüddətli "qəti inkar mərhələsi" - XVIII əsrə qədər davam edib. Bu mərhələni sağlamlıq imkanları məhdud insanların təhsil və həyat ilə bağlı hüquqlarının bütünlüklə inkar olunması (sosial izolyasiya və seqreqasiya, hətta məhv edilməsi) ilə xarakterizə etmək olar. XVIII əsrin əvvəllərinə qədər əlilliyi olan insanlar sərt təqiblərə və mövhumata məruz qalırdılar. Onları insan hesab etmirdilər. Təbliğ olunurdu ki, əlillik günaha görə ilahi məhkəmənin cəzasının nəticəsidir. Təqib və cəza, hətta sağlamlıq imkanları məhdud insanların məhv edilməsi kilsə tərəfindən qanuniləşdirilirdi. Həmin zamanlar əlillik anlayışı şər və cadugərlik ilə təsbit edilirdi.

İkinci mərhələ - XVIII əsr - XX əsrin əvvəli sağlamlıq imkanları məhdud insanlara qarşı münasibətin tədricən dəyişilməsi, inklüziv təhsil ideyasının yaranması və onun tətbiqi ilə bağlı ilk cəhdlərin göstərilməsidir. Bu dövr cəmiyyətin belə insanlara qarşı münasibətinin transformasiyasının başlanğıcıdır. Qeyd etmək lazımdır ki, təşəkkül mərhələsi ümumtəhsil məktəblərində sağlamlıq imkanları məhdud uşaqların təlimi üçün imkanların təmin olunmasına yönəlmiş yeni siyasət və dövlətin münasibətinin dəyişilməsi ilə xarakterizə olunur.

Pedaqogika elminin tədqiqatçıları L.S.Vıqotski, R.Sullivan və N.McIntyren və digərlərinin yazdıqları kimi, XIX əsrin ilk onilliyi ərzində müştərək təhsil problemi nəinki mütərəqqi pedaqoqları düşündürürdü, həmçinin də, ümumilikdə, bəzi Avropa ölkələrinin xalq məktəblərində uğurla tətbiq olunurdu.

Avropa inklüziv pedaqogikası XIX əsrdə bütün uşaqların təlimi və onların gələcək əmək fəaliyyətinə hazırlığı zərurəti, imkanları, təbiətə və tələbatlara müvafiq olaraq hərtərəfli inkişaf, əqli inkişafdan qalmış, fiziki və sosial baxımdan zəif olan uşaqlar üçün vacibliyi haqqında J.Pestalotsinin pedaqoji ideyalarından başlayıb.

Son illər ərzində Azərbaycan Respublikasında aparılan təhsil islahatları inklüziv təhsil sahəsində ən əhəmiyyətli uğurlara nail olmağa imkan vermişdir.

Ölkəmizin təhsil müəssisələrində inklüziv təhsilin uğurlu tətbiqinə bir sıra vacib amillər yardım edir. İlk növbədə, bu, tam inklüziya prosesinin həyata keçirilməsində təxirəsalınmaz təkmilləşməsini tələb edən müəllimlərin peşəkarlığı və şəxsi hazırlığıdır.

İndiki dövrdə dövlət layihələrinin və proqramlarının çərçivələri daxilində Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən müxtəlif tematik treninqlər, müəllimlərin ixtisasartırma kursları, inklüziv təhsil müəssisələrinin rəhbərləri üçün məcburi kursların təşkili ilə bağlı bir sıra qərarlar qəbul olunub.

Şübhəsiz, bütün bu tədbirlərin həyata keçirilməsi inklüziya çərçivəsində məktəblərin və universitetlərin müəllimlərinin peşəkarlıq səviyyəsini qaldırmışdır. Lakin hələ də, inklüziv qruplarda müəllimlər xüsusi müəllimlər hesab olunur. Yəni, ümumi qrupların müəllimi ilə inklüziv qrupların müəllimi arasında hələ də fərq mövcuddur.

*Qeyd etmək lazımdır ki, tam inklüziv ali təhsil üçün tədris sistemlərində heç bir fərq olmamalı və bütün müəllimlər eyni dərəcədə universal dərslərə hazır, tədris sistemi də universal olmalıdır.*

Xarici alimlərin tədqiqatlarında (A.Meyer, D.Rose və D.Gordon; H.Macdonald və R.Teed və başqaları) təhsil müəssisəsində inklüziyanın təmin olunmasının universal nəzəri modelinin yaradılmasından bəhs olunur. Onların müşahidələrinə görə, inklüziv təhsilin tətbiqi prosesi bütün şagirdlərə qarşı münasibətdə pedaqogikanın çevikliyinə əsaslanmalıdır. Eyni zamanda, çoxillik tədqiqatların nəticələri sübut edir ki, inklüziv təhsilin vahid modelini yaratmaq qeyri-mümkündür. Lakin təhsil metodologiyalarının dəyişdirilməsi zərurətinin anlaşılması daha vacibdir. Pedaqogikanın tədqiqatları şagirdlərin tələbatlarının müxtəlifliyi nəticəsində tədris metodlarının və kurikulumların çevikliyi zərurətini təsdiq edir.

**Təhsildə yeni anlayış**

Qeyd etmək lazımdır ki, təhsil sisteminin təkmilləşdirilməsi, pedaqogika elminin inkişafı, ümumilikdə, təhsil sisteminin universallığına gətirib çıxarır. Hələ 1990-cı illərin əvvəllərində Tətbiqi Texnologiyalar Mərkəzinin (CAST) amerikalı mütəxəssisi R.Meysin universal dizayn konsepsiyasının təhsil sisteminə tətbiqinə diqqət yetirir. “Universal dizayn” termini memar Ronald Meys tərəfindən təklif olunub və yaş həddindən, qabiliyyətdən və ya statusdan asılı olmayaraq hamı tərəfindən münasib istifadə və estetika mövqeyindən istənilən məhsulun və mühitin layihələndirilməsinə yanaşma üsullarının tərifi kimi qəbul edilir. CAST mütəxəssisləri insanların tələbatlarının qabaqcadan görülməsi və əhatəliliyi, çevikliyi elementlərini, eləcə də, qabaqcıl elmi nailiyyətlərdən istifadə edərək, müxtəlif bacarıqlara malik şagirdlər üçün universal vasitələri axtarmağa müəllimləri təşviq edən Universal Design for Learning tədrisi üçün konsepsiyasını və texnologiyasını yaradıblar.

“Universal tədris dizaynı” anlayışı bizim ölkənin təhsil mühitinə yeni daxil olur. İndiyədək onu memarlıq termini kimi qəbul ediblər, yəni, həm “müyəssər mühit”, həm də “müyəssər infrastruktur” kimi.

2006-cı ildə əlillərin hüquqları haqqında BMT Konvensiyasının ratifikasiyasından sonra Azərbaycan Respublikası ətraf məkanda, xidmətlər sahəsində, o cümlədən də təhsil sahəsində universal dizayn prinsiplərinə riayət edilməsinin təmin olunması ilə bağlı beynəlxalq öhdəlik qəbul edib. “Universal dizayn” termini adaptasiya və ya xüsusi dizayn zərurəti olmadan bütün insanlar üçün maksimal dərəcədə istifadəyə yararlı olan predmetlərin, vəziyyətlərin, proqramların və xidmətlərin dizaynı deməkdir (Əlillərin Hüquqları Haqqında Konvensiya).

*Tədrisin universal dizayn prinsipləri ən müxtəlif təhsil tələbatları olan şagirdlərin tədris prosesinə tam daxil edilməsi üçün şərait yaratmağa imkan verir. O, xüsusi tələbatlara malik olan şagirdlərlə ümumi təhsil proqramının mənimsənilməsi prosesində daimi dəstəyi təmin edir. Bu, nəinki xüsusi mütəxəssislər tərəfindən ayrı-ayrı məşğələlərdə, eləcə də hər gün, hər bir dərsdə, hər bir müəllim tərəfindən tədris proqramlarının çevikliyi və universallığı hesabına təmin olunur.*

**Pedaqoji dizayn**

Bir çox alimlərin tədqiqatlarını təhlil edərək universal tədris dizaynını “pedaqoji dizayn” kimi formalaşdırmaq mümkündür. Universal “Pedaqoji dizayn” elmi fənn kimi (Instructional Design), daha effektiv, rasional və rahat tədris üsullarının, metodlarının və sistemlərinin işlənib hazırlanması ilə məşğuldur. Geniş miqyas almış bu fənn aşağıdakı prinsiplərə əsaslanır:

1)“Təsəvvür” - dərs materiallarının işlənib hazırlanması (instructional design), informasiya və biliklərin təqdim üsulları, şagirdlərin onları almasının müxtəlif yolları, müxtəlif seçim imkanı ilə təmin edir;

2) “Nümayiş” - tədris prosesinin işlənib hazırlanması, şagirdlərə bildiklərini ifadə etmək və nümayiş etdirməklə bağlı müxtəlif variantların seçimi imkanlarının təqdim olunması (learning design);

3)“İştirak” - təhsil (tədris) mühitinin işlənib hazırlanması, diqqətin cəlb olunmasının müxtəlif üsulları, şagirdlərin marağının stimullaşdırılması, motivasiyanın artırılması (environment design).

*Bütün şagirdlərin tələbatlarına cavab verən çevik dərs proqramlarının hazırlanmasında müəllimlərə kömək etmək üçün CAST universal tədris dizaynı texnologiyasını və prinsiplərini işləyib hazırlayıb (Universal Design of Learning). "Tədris prosesində universal dizayn üzrə Təlimatda deyilir ki, təhsilin universal dizaynı koqnitiv elmin nailiyyətlərinə, beynin fəaliyyətinin qanunauyğunluqlarına əsaslanmışdır.*

Məlum olduğu kimi, beynin müxtəlif hissələri infomasiyanın işlənməsi, yadda saxlanması, müxtəlif fəaliyyət növlərində istifadə olunması zamanı spesifik rol oynayır.Məhz universallıq təhsil dizaynının prinsipi kimi tədris prosesinə nəinki sağlamlıq imkanları məhdud şagirdləri, eləcə də hamını, o cümlədən, müəllimləri də cəlb etməyə imkan verir.

Müəllim universal dizayn əsasında dərs proqramını və dərs materiallarını işləyib hazırlayaraq biliklərin mənimsənilməsi zamanı şagirdlərdə hansı məqamların meydana çıxacağını təhlil edir. Müəllim eyni zamanda bir neçə aspektə diqqət yetirməlidir: şagirdin fiziki tələbatları - köməkçi texnologiyalar vasitəsilə; koqnitiv, təşkilati, motivasiyası - effektiv tədris vasitəsilə. Universallıq müxtəlif təhsil tələbatlarına malik olan bütün şagirdlərə müvafiq alternativlərin, çevik tədris modulları daxilində variantların təqdim olunması ilə əldə olunur. Burada şagirdlərin fərdi tələbatlarının qiymətləndirilməsi əsasında hazır "vahid" proqramların modifikasiyası əsasında qurulan diferensial tədrislə universal təhsil dizaynın fərqini qeyd etmək lazımdır.

Bəzi alimlərin təsdiq etdikləri kimi (S.Vıqotski, S.Gilbert, R.Felder və R.Brent, J.Milem, J.Mitchell və A.Antonio), tədris prosesində bir sıra amillər vacib rol oynayır: sosial siniflərin fərqi, dərketmə və qavramanın müxtəlif səviyyəsi, gender məsələsi, azadlıq, seksuallıq, dindarlıq, etnik mənşə və irqi göstəricilər, eləcə də şəxsi xarakteristikalar. Bütün bunlar xüsusilə də inklüziv qruplarda tədris prosesində diqqət tələb edir. Tədris prosesinin təkmilləşdirilməsində ən əsas məqam müəllimlərin peşəkarlığıdır. Məsələn, David Rose qeyd edir ki, peşəkar müəllim öz işində nəinki informasiya materiallarından, eləcə də üzün, səsin, bədən hərəkətlərinin ifadə formasından istifadə edir.

Universal tədris dizaynı klassik pedaqoji elmin bütün metodologiyalarının, eləcə də bütün müasir metodların istifadə olunmasını nəzərdə tutur. Xarici alimlər öz işlərində S.Gilbert ("Pedaqogikanın personlaşdırılması"), B.Burnett və P.Meadmore ("Məruzələr kursu: təqdimat vasitəsi və ya gücləndirilmiş pedaqogika") qeyd edirlər ki, informasiya texnologiyaları tədrisin fərdiləşdirilməsi üçün istifadə oluna və onu daha interaktiv edə bilər. Eyni zamanda interaktivlik effektiv tədris üçün əsas məsələ olaraq qalır. Texnologiyaların istifadə olunması tələbələrin və müəllimlərin motivasiyasına təsir

göstərir. Hansı kütləvi informasiya vasitələrinin və hansı informasiya texnologiyalarının effektiv tətbiqi üçün daha yararlı olduğunu peşəkar şəkildə təyin etmək vacibdir.

**Rəqəmsal texnologiyalar**

Rəqəmsal texnologiyalar haqqında bəhs edərək qeyd etmək lazımdır ki, indiki dövrdə kompüterlərin, mobil qurğuların və müxtəlif proqram əlavələrin işlənib hazırlanması zamanı hərəkətlilik, görmə və eşitmə məhdudiyyətləri mütləq qaydada nəzərə alınır. Universal tədris dizaynında peşəkar müəllimlər əməliyyat sistemlərinin və qurğularının əksəriyyətində mövcud olan xüsusi imkanlar haqqında məlumatlı olmalıdırlar və onlardan mütləq istifadə etməlidirlər.

Tədris prosesini və ümumilikdə, həyatı asanlaşdıran çoxlu sayda servislər və proqram əlavələri işlənib hazırlanmışdır. Onlardan bir neçəsini qeyd etmək mümkündür:

*Windows və MasOSX sistemlərində məhdud imkanlı insanların məhz bu sistemlərdən internetdən istifadə etmələrinə, nəinki sağlamlıq imkanları məhdud insanlar üçün nitq və digər göstəriciləri tanımağa imkan verən yeni qurulmuş rejimlər mövcuddur. Apple tərəfindən buraxılan və eşitmə, görmə qabiliyyəti, fiziki bacarıqları məhdud olan insanlara bilik əldə etməyə, inkişaf etməyə imkan verən müxtəlif texnologiyalar yaradılmışdır. Google Chrome brauzerində və Google - sənədlərində görüntü ölçüsünün dəyişdirilməsi, mətnin səsləndirilməsi və səs interfeysi mövcuddur.*

Telefonlar üçün "Be my eyes" əlavəsi mövcuddur və onun işi zəif görən və ya ümumiyyətlə, görməyən istifadəçinin ətrafında heç nəyi görmədiyi halda seyr etmək istədiyi yerə kameranı yönəltməsindən və yaxşı görən könüllünün onlayn rejimində nəyin harada yerləşməsindən bəhs etməsindən ibarətdir. Eşitmə və ya nitq məhdudiyyətli insanlar üçün Android sistemində "Yandeks söhbət" əlavəsi sağlamlıq imkanları məhdud insanlar arasındakı ünsiyyəti daha da asanlaşdırır.

"Tecla qurğusu" hərəkət məhdudiyyəti olan insanların smartfondan və ya planşetdən istifadə etmələrinə imkan verir. "Korlar üçün onlayn kinoteatr" adaptasiya edilmiş saytında görmə qabiliyyəti məhdud olan insanlara ekranda baş verənləri hiss etməyə imkan verən texnologiya tətbiq olunmuş və bütün bunların Brayl şrifti ilə yazılanlar və baş verənlər ilə bağlı şərhlər saytda yerləşdirilmişdir. Smooth servisi məhdud hərəkət imkanlarına malik olan insanlar üçün əvəzolunmaz, maneələrin dəf olunması ilə şəhər üzrə marşrutların qurulmasının ilk servisidir. "Surdofon" əlavəsi rahat ünsiyyət mühitinin yaradılmasında eşitmə qabiliyyəti zəif olan insanlara kömək edir.

Qeyd olunan bütün rəqəmsal texnologiyalar və proqram əlavələri zəruri hallarda tədris prosesində müəllimlər tərəfindən istifadə olunmalıdır. Bu, təhsildə universal dizayn sisteminin təkmilləşdirilməsi üçün bazanı zənginləşdirir.

Unutmaq lazım deyil ki, bütün dərs materialları və vasitələri müəllim tərəfindən düzgün istifadə olunduğu zaman effektiv olur. Universal dizayn prinsiplərinin tətbiq olunması ilə dərslərin hazırlanması zamanı əsas vəzifə - şagirdlər üçün çalışma sürətinin, qiymətləndirmə metodlarının və formalarının seçim imkanını təmin etməkdən, dərs materiallarının təqdim olunmasının müxtəlif üsullarının və tapşırıqlarının ən alternativ növlərini düşünməkdən ibarətdir.

*Tədrisdə universal dizayn sisteminin tətbiqi keçid dövrünün bir çox problemlərini həll etməyə, şagirdlərin şəxsiyyətinin inkişafının xüsusiyyətlərinə diqqət yetirməyə imkan verir. Təhsildə universal dizayn müəllimlərin peşəkar səriştəliliyinin və inklüziv tədris formalarının inkişafını təkmilləşdirir.*

Yekunda qeyd etmək istərdik ki, inklüziv təhsil - yalnız sağlamlıq imkanları məhdud gənclərin təlim prosesinə fiziki baxımdan daxil edilməsi deyildir. Bu sahədə alimlərin çoxsaylı işlərini araşdıraraq belə bir tərif formalaşdırmaq olar: "İnklüziv təhsil fundamental əsasını bütün təhsil alanların çoxşaxəliliyi unikallığa və dəyərləri təşkil edən, onlara gələcək tam dəyərli fəaliyyət üçün zəmin yaradan təhsil sistemində sağlamlıq imkanları məhdud insanlar da daxil, hər bir insanın effektiv iştirakını təmin edən çoxsahəli pedaqoji elmdir.

Bu, tədris prosesinin təşkilinin yeni sistemidir. Bu, şagirdlərin bütün müxtəlifliyinin, əmək və estetik tərbiyəsinin, onların istedadının və fərdi xüsusiyyətlərinin nəzərə alınması ilə bütün şagirdlər tərəfindən informasiyanın qəbul olunmasını və bütünlüklə anlaşılmasını təmin edən yeni yanaşma üsullarıdır. Bu, təhsilin universal dizaynı prinsiplərinə riayət edərək pedaqogika elminin təkmilləşdirilməsi yolu ilə əldə olunan tədris prosesinin təşkilidir.

Tədrisdə universal dizayn sahəsində araşdırmalara davam edilir. Növbəti məqalədə tədrisdə universal dizayn metodları haqqında daha ətraflı məlumat təqdim edəcəyik.

***Sevinc Məhsimova,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin İnklüziv təhsil mərkəzinin koordinatoru***

Tədrisdə universal dizayn (unec.edu.az)

## “Ekspo 2025 Bakı” esse müsabiqəsinin qalibi - UNEC tələbəsi

***UNEC-in tələbəsi esse müsabiqəsində III yerə layiq görülüb.***

Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və “Ekspo 2025 Bakı” Əməliyyat Katibliyinin birgə təşkilatçılığı ilə keçirilən müsabiqə 2025-ci ildə Beynəlxalq Sərgilər Bürosunun ümumdünya sərgisinə ev sahibliyinə Bakı şəhərinin namizədliyi çərçivəsində təşkil olunub.

“İnsan kapitalını inkişaf etdirərək, daha yaxşı gələcək quraq” mövzusu üzrə keçirilən müsabiqənin məqsədi gənclər arasında “Ekspo 2025 Bakı” layihəsi haqqında məlumatlılıq səviyyəsini artırmaq, ölkə üçün vacib əhəmiyyət kəsb edən məsələlərdə gənclərin iştirakına şərait yaratmaq, onların kreativlik potensialını müasir cəmiyyətin inkişaf istiqamətləri və sərginin fəlsəfəsinə yönəltməkdir.

UNEC-in İqtisadiyyat fakultəsinin IV kurs tələbəsi Amin Hüseynov müsabiqəyə “Mənim ölkəm, mənim gələcəyim” essesi ilə qatılıb. A.Hüseynov UNEC-in İnklüziv Təhsil Mərkəzinin fəal üzvlərindəndir.

Qalib xüsusi diplom və qiymətli hədiyyələrlə təltif edilib.

*Tələbəmizi bu uğuru münasibətilə təbrik edirik!*

“Ekspo 2025 Bakı” esse müsabiqəsinin qalibi - UNEC tələbəsi

## Rektor: “UNEC-də fiziki məhdudiyyətli gənclərin ali təhsilə inteqrasiyası üçün inklüziv təhsil mühiti yaradılıb” –

***Mayın 5-də Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əlil Təşkilatları İttifaqı və UNEC-in birgə təşkilatçılığı ilə əlilliyi olan gənclər üçün əmək yarmarkası keçirilib.***

Gənclər və idman nazirinin müavini İntiqam Babayev ölkədə sosial sahənin inkişafı ilə bağlı siyasətin əsas istiqamətlərindən biri əlil gənclərin bütün sahələrdə fəaliyyətinin təmin edilməsi və onlardan bərabərhüquqlu istifadəyə imkan verən inklüziv mühitin yaradılması olduğunu bildirib. Bu sahədə konkret proqramlar icra olunur, deyən nazir müavini dövlət başçısının təsdiqlədiyi “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” və “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə” dövlət proqramlarının sağlamlıq imkanları məhdud şəxslərin təhsili üçün maneəsiz mühit yaratmağa və onların məşğulluq imkanlarının genişləndirilməsinə xidmət etdiyini diqqətə çatdırıb. İ.Babayev əlilliyi olan şəxslər üçün ilk dəfə belə bir tədbirin təşkil olunduğunu bildirərək, yarmarkada 47 özəl şirkətin 160-dan artıq real vakansiya təqdim etdiyini qeyd edib. Eyni zamanda, əmək yarmarkasında gələcəkdə yaranacaq iş yerləri üçün məlumat bazası da toplandığını vurğulayıb.

UNEC-in rektoru, professor Ədalət Muradov inklüziv təhsilin Azərbaycan təhsilinin prioritet istiqamətlərindən olduğunu və fiziki məhdudiyyətli insanların daima dövlətin qayğı və diqqəti ilə əhatə edildiyini bildirib. Rektor fiziki məhdudiyyətli gənclərin ali təhsilə inteqrasiyası üçün UNEC-də inklüziv təhsil mühitinin yaradıldığına diqqət çəkərək, bu mühitin təhsilin hamı üçün əlçatan olmasını təmin etməklə yanaşı, sosial bərabərliyin qorunmasına, fiziki məhdudiyyətli gənclərin öz potensiallarını nümayiş etdirə bilməsinə və təhsil ehtiyaclarının ödənilməsinə şərait yaratdığını qeyd edib.

Vergilər Nazirliyi, Mərkəzi Bank, Dövlət İmtahan Mərkəzi, Asan Kadr, Bank of Baku, ATA Holding, Coca-Cola, Nobel Oil, Azercell, Nar Mobile, KPMG beynəlxalq şirkəti, Kapital Bank, Turan Bank, Express Bank, YapıKredi Bank, Veysəloğlu Şirkətlər Qrupu, Gilan Holding və s. daxil olmaqla 60-a yaxın dövlət qurumu, yerli və xarici şirkətin qatıldığı əmək yarmarkasında 1800 gənc iştirak edib.

Rektor: "UNEC-də fiziki məhdudiyyətli gənclərin ali təhsilə inteqrasiyası üçün inklüziv təhsil mühiti yaradılıb"

UNEC-də seminar: "Danışan əllər" –

***UNEC-də "Danışan əllər" adlı maarifləndirici seminar keçirilib.***

Seminarın məqsədi eşitmə və danışma məhdudiyyətli şəxslərə işarət dilinin öyrədilməsi, onlarla davranış qaydası, məhdudiyyətsiz mədəniyyətə yiyələnmək, işarət dilinin tarixi və mahiyyəti haqqında məlumat vermək olub.

Seminarda peşəkar mütəxəssis Turan Məmmədli UNEC-in tələbələrinə işarət dilində ünsiyyətə dair hərəkətləri izah edib. Maraqlı, interaktiv şəkildə keçirilən seminarda iştirakçıların sualları cavablandırılıb. Sonda "Həyat eyni dili danışanda gözəldir" şüarı altında xatirə videosu çəkilib.

Təlim UNEC-in Karyera Mərkəzi, Əlilliyi olan Tələbələr üçün Mərkəz və SABAH Qrupunun tələbəsi, Tələbə Həmkarlar İttifaqı Komitəsinin üzvü Günay Bayramovanın təşkilatçılığı ilə həyata keçirilib.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — UNEC-də seminar: "Danışan əllər"

Hər kəsin təhsil ala biləcəyi universitet –

"Azərbaycan müəllimi" qəzeti

***UNEC Azərbaycanın və Qafqazın inklüziv universitet nümunəsi olmağı hədəfləyib***

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) inklüziv təhsil verən dünya universitetləri siyahısına düşmək və nəinki Azərbaycanda, bütövlükdə Qafqaz bölgəsində bu təhsil

növündə nümunə olmaq niyyətindədir. Rektor Ədalət Muradov rəhbəri olduğu təhsil müəssisəsinin bu niyyətini "İnklüziv ali təhsil: beynəlxalq trendlər və UNEC təcrübəsi" mövzusunda universitetdə təşkil edilən konfransda deyib.

Maraqlıdır, UNEC nəyə nail olmaq istəyir? Bu təhsil növünün tətbiqi ilə universitetdə nə dəyişəcək?

Məlumat üçün bildirək ki, inklüziv təhsil cəmiyyətdəki mövqeyindən, statusundan, dilindən, dinindən asılı olmayaraq, hər bir şəxs üçün yaradılan bərabər təhsil imkanıdır. Ölkənin indiyədək qüvvədə olan təhsil qanunvericiliyində "inklüziv təhsil" anlayışından istifadə olunmasa da, qüvvədə olan "Təhsil haqqında" qanunun 5-ci maddəsində qeyd edilir ki, dövlət cinsindən, irqindən, dinindən, dilindən, siyasi əqidəsindən, milliyyətindən, sosial vəziyyətindən, mənsubiyyətindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşın təhsil almaq imkanının yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir. Bu da ona dəlalət edir ki, hansı anlayışların seçilməsindən, istifadə olunmasından asılı olmayaraq, Azərbaycan dövləti indiyədək hər kəsin təhsil hüququnu tanıyıb və təmin edib.

Buna baxmayaraq, "inklüziv təhsil" anlayışının qanunvericiliyə gətirilməsi istiqamətində təşəbbüslər də cavabsız qalmayıb.

Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında inklüziv təhsilə geniş yer ayrılıb. "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nda ali təhsil müəssisələri qarşısında duran vəzifələr müəyyən edilib. Yeni qəbul edilən "Məktəbəqədər təhsil haqqında" qanunda bu anlayış öz əksini tapıb.

Qeyd etməliyik ki, inklüziv təhsil özlüyündə daha geniş məna kəsb etsə də, cəmiyyətdə bu təhsil növü əlilliyi olan şəxslərə münasibətdə daha çox aktuallıq kəsb edir və təhsilin bu növündən danışarkən ilk ağla gələn məhz onlar olur.

Azərbaycan Respublikasının Konstitusiyasında, tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə, xüsusilə də BMT Baş Məclisinin 2006-cı ilin dekabrında qəbul etdiyi "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyada təsbit olunan mühüm hüquqlardan biri də təhsil hüququdur. Ekspertlər hesab edir ki, sırf bu səbəbdən əlilliyi olan şəxslərin inklüziv təhsil imkanlarının artırılması üçün ilk növbədə təhsilin normativ hüquqi bazası təkmilləşdirilməlidir.

Bəs, mövcud şərtlər altında əlilliyi olan şəxslərin təhsili üçün nə lazımdır?

**Əvvəlcə onlara fərq qoymamağı öyrənək**

UNEC-də təşkil edilən müzakirələrdən sonra belə qənaətə gəlmək olar ki, sağlamlıq imkanları məhdud şəxslərin təhsilinə qədər həll edilməli çoxsaylı məsələ var. Məsələn, onları necə "fərqləndirməli"?

Rektor Ə.Muradov "əlilliyi olan şəxs" sözünün azərbaycanca daha humanist qarşılığının tapılmasını təklif edir. O, bu fikirdədir ki, sözügedən ifadə daha humanist sözlə əvəz edilməlidir. "Əlilliyi olan şəxs" ifadəsi sağlamlıq imkanları məhdud insanlarda narahatlıq yarada bilər və yaradır. Azərbaycanın da qoşulduğu BMT-nin müvafiq sənədlərində "əlilliyi olan şəxslər" deyə müəyyən olunan bu ifadənin azərbaycanca xüsusilə kobud səsləndiyi qənaətində olan Ə.Muradovun fikrinin əksinə olaraq, Dünya Əlillər Vəqfinin vitse-prezidenti Necdet Öztürk onları ayırmamağı, cəmiyyətdə fərqləndirməməyi məsləhət görür. İnsanları sağlama və ya qeyri-sağlama, qadın və ya kişiyə ayırmağa ehtiyac yoxdur. Onun fikrincə, əlilliyi olan şəxslərə münasibətdə vahid dövlət siyasəti olmalıdır.

Dünya Səhiyyə Təşkilatının 2011-ci il hesabatında dünya əhalisinin 15 faizinin əlil olduğu göstərilib. Bu fakta əsaslanan N.Öztürk hesab edir ki, dünyada dövlətlər əlilliyi olan şəxslərin problemlərinə kompleks yanaşmalıdır: "İnkişaf edib-etməməsindən asılı olmayaraq, bir dövlət fiziki məhdudiyyətli insana yardıma möhtac kimi baxır, onu saxlamağa vəsait ayırır. Başqa bir dövlət ona tamamilə fərqli baxaraq, təhsilinə, inkişafına şərait yaradır və nəticədə nəinki xərc çəkir, əksinə, qazanc götürür. Belə ki, o da digər insanlar kimi dövlətə xidmət edir, hətta öz sahəsində mükəmməl kadra çevrilir. Fiziki cəhətdən məhdudiyyətlilər də bütün ölkə vətəndaşları kimi, oxuyacaq, işləyəcək, karyera quracaq. Əgər o, dövlət məmuruna, özünü necə ifadə edəcəyini, necə qəbul etdirəcəyini düşünəcəksə, heç vaxt uğur qazana bilməyəcək. Dövlətlər elə etməlidir ki, biz həm ayaqda durmağa çalışıb, həm həyatla, həm də şəraitlə mücadilə etmək məcburiyyətində qalmayaq. Bir çox yerdə sağlamlıq imkanları məhdud olanların sosial vəziyyətilə bağlı faciəvi durum var. Bir binanın tikintisinə icazə verilərkən, layihəsi razılaşdırılarkən bəlli standartlar nəzərə alınmalıdır. Niyə əlil bir binada necə hərəkət edəcəyinin dərdini çəkməlidir? Təşkilatlar, xidmət sahələri vəzifələrini yerinə yetirərsə, bu cür problemlər olmaz, biz də normal yaşayarıq".

Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasına mane olan səbəbləri iki qrupa ayıran Əlil Təşkilatları İttifaqının prezidenti Davud Rəhimlinin fikrincə, fiziki maneələr maddi amillərlə bağlıdır. Dövlətin iqtisadi imkanları artdıqca təhsil infrastrukturunun inkişafı ilə bağlı tədbirlər həyata keçirilə bilər və keçirilir. Ancaq psixoloji maneələr maddi vəsait çərçivəsində həll olunan məsələ deyil, insanların şüur səviyyəsindən asılıdır. Bu da güclü maarifləndirmə tədbirləri tələb edir.

**Təhsildə inklüzivlik necə təmin ediləcək?**

BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyasını dəstəkləyən 160 ölkə arasında Azərbaycan da var. Əlillərin təhsili ilə bağlı tələb də həmin konvensiyanın 24-cü

maddəsində əksini tapıb və burada təhsil, sadəcə, bütünləşdirilmiş təhsil modeli ilə qəbul edilir.

N.Öztürkün fikrincə, əlillərin problemlərinə kompleks yanaşma təhsildə də öz sözünü mütləq deyir. Təhsildə fiziki qüsurlu şəxsin orta təhsil almadan ali təhsil alması mümkün olmadığından, universitetlərin də ümumtəhsil müəssisələrində dəstəklənməyən təhsil növünü tətbiq edərək uğur qazanması mümkün deyil: "Bu yaxınlarda Kanadada universitetlərdən birində oldum. Burada dünyanın ayrı-ayrı ölkələrindən gələn 1500 fiziki məhdudiyyətli gənc təhsil alır. Universitetin ilk üçlükdə yer alan tələbəsi boynundan aşağı iflicdir. Burada 1500 əlil tələbəyə gündəlik ehtiyaclarına uyğun xidmət göstərilir. Bir sinifdə görməyən, eşitməyən, fiziki qüsurlu və sağlam gənclər eyni müəllimdən dərs alır. Buna da bütünləşdirilmiş təhsil modeli deyirlər. Yəni, bir məktəbdə ayrıca sinif açmır, hamıya birgə təhsil verirlər".

**UNEC inklüziv təhsilə doğru**

Əlil Təşkilatları İttifaqının prezidenti Davud Rəhimli inklüziv təhsilin inkişafında universitetlərin üzərinə böyük məsuliyyət düşdüyü qənaətindədir. O, inklüziv təhsildə problemlərin aradan qaldırılması ilə bağlı layihələrin həyata keçirildiyinə diqqət çəkərək, UNEC də daxil olmaqla, ölkənin 6 ali təhsil müəssisəsində beynəlxalq təcrübəyə əsaslanan mərkəzlərin yaradıldığını vurğulayıb: "3 il əvvəl Avropa Birliyinin maliyyə dəstəyi ilə 6 universitetimizdə inklüziv təhsil mərkəzlərinin yaradılması ilə əlaqədar layihə həyata keçirildi. Layihəyə başlayanda universitetlərdə əlilliyi olan tələbələrin statistikası belə yox idi. Statistika həm də ona görə önəmlidir ki, onların təhsildən sonra məşğulluğunu təmin etmək mümkün olsun. Artıq Bakıda və regionlarda olan universitetlər bu sahədə müəyyən təcrübə əldə etməyə nail olub. Standart qaydalar yaradılıb ki, həmin qaydalar inklüziv təhsilin təşkil olunmasında addım sayılır. Növbəti mərhələdə UNEC və inklüziv təhsil mərkəzləri yaradılan başqa universitetlər inkubator rolunu oynayacaq. Nəticədə həmin universitetlər bölgədə nümunə olacaq".

Ancaq UNEC, deyəsən, 6 universitetdən biri deyil, məhz birincisi olmaqda qərarlıdır. İnklüziv təhsil deyəndə, UNEC-də də əsasən əlilliyi olan şəxslərin təhsilinin təşkil edilməsi üçün zəruri şəraitin yaradılması nəzərdə tutulub və bu istiqamətdə ardıcıl addımlar atılıb. 2015-ci ildən başlayaraq, əvvəlcə əlilliyi olan tələbələr üçün mərkəz yaradılıb. 2016-cı ildə rektor Ə.Muradov sosial şəbəkələr vasitəsilə iqtisadçı olmaq istəyən fiziki məhdudiyyətli gənclərə müraciət edərək, onları universitetə dəvət edib. Rusiyada inklüziv təhsil sahəsində aparıcı universitet sayılan Moskva Dövlət Humanitar və İqtisad Universiteti ilə ikitərəfli müqavilə əsasında UNEC tələbələrinə həmin universitetdə də təhsil almaq imkanı yaradılıb. Fiziki məhdudiyyəti olan gənclərin rahat hərəkəti üçün hər xırdalığın nəzərə alındığı dünya standartlarına uyğun yeni korpusun istifadəyə verilməsindən sonra isə UNEC sağlamlıq imkanlarından asılı olmayaraq hər kəsin təhsil ala biləcəyi nümunəvi universitetə çevriləcək.

Rektor Ə.Muradovun sözlərinə görə, UNEC sadəcə təhsil verməklə də kifayətlənməyəcək. Yeni qərara əsasən, Startap layihələri olan tələbələrə dəstək veriləcək: "Fiziki məhdudiyyəti olan tələbələrimizin ortaya qoyacağı 3 startap layihəsini UNEC tamamilə maliyyələşdirəcək. Layihənin icrası, reallaşdırılması üçün nə lazımdırsa, təmin ediləcək".

Bundan başqa, tələbələrin işlə təmin olunması məqsədi ilə də müvafiq tədbirlər düşünülüb. Belə ki, onlar məzun olduqdan sonra elə universitetdəcə işlə təmin olunacaqlar.

***Ruhiyyə DAŞSALAHLI***

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — Hər kəsin təhsil ala biləcəyi universitet

## UNEC-də keçirilən beynəlxalq konfrans inklüziv təhsilin inkişafına təkan verəcək –

***UNEC-də "İnklüziv ali təhsil: beynəlxalq trendlər və UNEC təcrübəsi" mövzusuna həsr olunan beynəlxalq konfrans başa çatıb.***

Konfrans çərçivəsində xarici və yerli mütəxəssislər inklüziv ali təhsilin bütün istiqamətlərini əhatə edən təlimlər keçiblər. İnklüziv təhsildə pedaqoji etika, inklüziv kitabxana, əlilliyi olan tələbələrdə özünü qiymətləndirmə, motivasiyanın yaradılması mövzularına həsr olunan təlimlərdə UNEC, ADA və Sumqayıt Dövlət Universitetinin nümayəndələri iştirak edib. Onlar konfransın əhəmiyyətini vurğulayaraq, inklüziv təhsilin inkişafına böyük təkan verəcəyini bildiriblər.

Sonda iştirakçılara sertifikatlar təqdim olunub.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — UNEC-də keçirilən beynəlxalq konfrans inklüziv təhsilin inkişafına təkan verəcək

## İnklüziv ali təhsildə beynəlxalq trendlər –

***UNEC-də "İnklüziv ali təhsil: beynəlxalq trendlər və UNEC təcrübəsi" mövzusunda keçirilən beynəlxalq konfrans çərçivəsində təlimlər davam edir.***

İnklüziv ali təhsilin bütün istiqamətləri üzrə təşkil olunan təlimlər xarici və yerli mütəxəssislər tərəfindən aparılır. UAE Zayed Sosial Müdafiə Milli təşkilatının tədris sektorunun baş təlimçiləri Şaron Keqan və Tina Merk inklüziv təhsil və əlilliyi olan tələbələrin məşğulluğu ilə bağlı təlim keçib. Digər təlimlər isə əlilliyi olan şəxslərə cəmiyyətin münasibəti, inklüziv kitabxana, müəllim və tələbələrin kitabxanadan səmərəli istifadə qaydaları mövzularında olub.

UNEC-in akademik heyətinin iştirak etdiyi təlimlərdə inklüziv ali təhsildə beynəlxalq trendlər və çağırışlar müzakirə olunub.

Konfrans işini sabah da davam etdirəcək.

[UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — İnklüziv ali təhsildə beynəlxalq trendlər]

## İnklüziv ali təhsildə UNEC təcrübəsi –

“Azərbaycan müəllimi” qəzeti

Azərbaycan Dövlət İqtisad Universitetində “İnklüziv ali təhsil: beynəlxalq trendlər və UNEC təcrübəsi” mövzusunda beynəlxalq konfrans işə başlayıb. UNEC, Dünya Əngəllilər Vəqfi (WDU), Azərbaycan Əlil Təşkilatları İttifaqı və Müstəqil Həyat İnkişaf və Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə təşkil edilən tədbirdə Dünya Əngəllilər Vəqfinin (WDU) vitse-prezidenti Necdet Öztürk, Azərbaycan Əlil Təşkilatları İttifaqının (ƏTİ) sədri Davud Rəhimli, Ombudsmanın əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi üzrə müşaviri Müqalib Mahmudov iştirak edib.

UNEC-in rektoru, professor Ədalət Muradov bildirib ki, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilən “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nda əlilliyi olan şəxslərin təhsil hüququnun təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin edilməsi, onların təhsili üçün maneəsiz mühitin yaradılması və bütün dünyada aktual olan inklüziv təhsil vasitəsi ilə cəmiyyətə inteqrasiyasını təmin edən bütün amillər nəzərə alınıb.

Rektor UNEC-də inklüziv təhsil sahəsində görülən işlərdən bəhs edərək, 2015-ci ildən universitetdə əlilliyi olan tələbələr üçün mərkəzin fəaliyyət göstərdiyini deyib. O, Azərbaycanda inklüziv ali təhsildə ikili diplom proqramının ilk dəfə UNEC ilə Moskva Dövlət Humanitar İqtisad Universiteti arasında həyata keçirildiyini qeyd edib. UNEC-də 26 fiziki məhdudiyyətli tələbənin təhsil aldığına diqqət çəkən Ə.Muradov onlara universitetin ictimai və sosial həyatında da fəal iştirak etmələri üçün hər cür şəraitin yaradıldığını vurğulayıb.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli UNEC-in fiziki məhdudiyyəti olan gənclərə münasibətini xüsusi qiymətləndirib: “İnklüziv təhsil dedikdə ağla ilk gələn orta məktəblər olurdusa, ilk dəfə ali təhsil məkanında əlillərə doğru addım atan UNEC bu stereotipi dağıtdı”.

H.Rəcəbli ölkədə təhsilin inkişafı üzrə Dövlət Strategiyasından irəli gələn xüsusi qayğıya ehtiyacı olan insanlar üçün inklüziv təhsil modelinin yaradılması ilə bağlı dövlətin həyata keçirdiyi islahatlardan danışaraq, bu sahədə ardıcıl işlər aparıldığını diqqətə çatdırıb. Azərbaycanda bu sahədə müəyyən təcrübə əldə olunduğunu deyən komitə sədri bununla bağlı hüquqi bazanın yaradıldığını və qanunlarda bu məsələnin təsbit edildiyini bildirib.

Dünya Əngəllilər Vəqfinin (WDU) vitse-prezidenti Necdet Öztürk dünya əhalisinin 15 faizinin fiziki məhdudiyyətli olduğunu diqqətə çatdıraraq, onların təhsil hüququnun qorunmasının vacibliyini qeyd edib. İnklüziv təhsilin xüsusiyyətlərindən danışan N.Öztürk

bu sahədə dünyanın qabaqcıl universitetlərinin təcrübəsindən faydalanmağı tövsiyə edib. O, inklüziv təhsildə UNEC modelinin çox uğurlu olacağına əminliyini ifadə edib.

Əlilliyi olan şəxslərin məşğulluğunun təmin olunmasında ali təhsilin olmasını vacib şərtlərdən biri kimi qiymətləndirən Azərbaycan Əlil Təşkilatları İttifaqının prezidenti Davud Rəhimli bu istiqamətdə universitetlərin üzərinə böyük məsulliyyət düşdüyünü qeyd edib. O, inklüziv təhsildə problemlərin aradan qaldırılması ilə bağlı layihələrin həyata keçirildiyinə diqqət çəkərək, UNEC də daxil olmaqla, ölkənin 6 ali təhsil müəssisəsində beynəlxalq təcrübəyə əsaslanan mərkəzlərin yaradıldığını vurğulayıb.

Ombudsman Aparatının Hüquqi maarifləndirmə sektorunun müdiri, Ombudsmanın əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi üzrə müşaviri Müqalib Mahmudov Azərbaycan əhalisinin 6 faizinin əlil olduğunu bildirərək, bunun MDB məkanında ən aşağı göstərici olduğunu diqqətə çatdırıb.

UAE Zayed Sosial Müdafiə Milli təşkilatının tədris sektorunun baş təlimçiləri Şaron Keqan və Tina Merk inklüziv təhsil sahəsində öz təcrübələrini paylaşıblar. UNEC-in Əlilliyi olan tələbələr üçün mərkəzinin koordinatoru Sevinc Məhsimova mərkəzin fəaliyyətindən danışıb.

Konfrans çərçivəsində UNEC ilə Azərbaycan Əlil Təşkilatları İttifaqı arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Sənəddə UNEC-də əlilliyi olan şəxslərin abilitasiya və reabilitasiyası məqsədi ilə birgə effektiv pedaqoji prosedurların hazırlanması nəzərdə tutulub. Eyni zamanda birgə layihə, konfrans, seminar, təlimlərin təşkil edilməsi və digər məsələlər əks olunub.

Üç gün davam edəcək konfransda xarici və yerli mütəxəssislərin inklüziv ali təhsilin bütün istiqamətləri üzrə təlimləri təşkil ediləcək.

***Ruhiyyə Daşsalahlı***

[UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — İnklüziv ali təhsildə UNEC təcrübəsi]

## CBC: UNEC-də "İnklüziv ali təhsil: beynəlxalq trendlər və UNEC təcrübəsi" –

*UNEC-də "İnklüziv ali təhsil: beynəlxalq trendlər və UNEC təcrübəsi" mövzusunda beynəlxalq konfrans keçirilir.*

CBC televiziyası UNEC, Dünya Əngəllilər Vəqfi (WDU), Azərbaycan Əlil Təşkilatları İttifaqı və Müstəqil Həyat İnkişaf və Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən konfransdan reportaj hazırlayıb.

*Reportajın videoyazısını təqdim edirik:*

[UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — CBC: UNEC-də “İnklüziv ali təhsil: beynəlxalq trendlər və UNEC təcrübəsi”](#)

## Dünya Əngəllilər Vəqfinin vitse-prezidenti: “İnklüziv təhsildə UNEC modelinin uğurlu olacağına əminəm” –

***Fevralın 12-də Azərbaycan Dövlət İqtisad Universitetində “İnklüziv ali təhsil: beynəlxalq trendlər və UNEC təcrübəsi” mövzusunda beynəlxalq konfrans öz işinə başlayıb.***

UNEC-in rektoru, professor Ədalət Muradov “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın qəbul olunmasına diqqət çəkərək, sənəddə əlilliyi olan şəxslərin təhsil hüququnun təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin edilməsi, onların təhsili üçün maneəsiz mühitin yaradılması və bütün dünyada aktual olan inklüziv təhsil vasitəsi ilə cəmiyyətə inteqrasiyasını təmin edən bütün amillərin nəzərə alındığını bildirib.

Rektor UNEC-də inklüziv təhsil sahəsində görülən işlərdən bəhs edərək, 2015-ci ildən universitetdə Əlilliyi olan tələbələr üçün mərkəzin fəaliyyət göstərdiyini deyib. O, Azərbaycanda inklüziv ali təhsildə ikili diplom proqramının ilk dəfə UNEC ilə Moskva Dövlət Humanitar İqtisad Universiteti arasında həyata keçirildiyini qeyd edib. UNEC-də 26 fiziki məhdudiyyətli tələbənin təhsil aldığına diqqət çəkən Ə.Muradov, onlara universitetin ictimai və sosial həyatında da fəal iştirak etmələri üçün hər cür şəraitin yaradıldığını vurğulayıb. Rektor ötən il beynəlxalq reytinqlərdə dünyanın ən “yaşıl” 619 universitetindən biri seçilən UNEC-in inklüziv təhsil sahəsində də dünyanın ən yaxşı universitetləri ilə bir sırada dayanacağına əminliyini ifadə edib.

Çıxışına “inklüziv təhsil dedikdə ağla ilk gələn orta məktəblər olurdusa, ilk dəfə ali təhsil məkanında əlillərə doğru addım atan UNEC bu stereotipi dağıtdı” sözləri başlayan Milli Məclisinin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli UNEC-in Əlilliyi olan tələbələr üçün mərkəzinin fəaliyyətini yüksək qiymətləndirib. H.Rəcəbli ölkədə təhsilin inkişafı üzrə Dövlət Strategiyasından irəli gələn xüsusi qayğıya ehtiyacı olan insanlar üçün inklüziv təhsil modelinin yaradılması ilə bağlı dövlətin həyata keçirdiyi islahatlardan danışaraq, bu sahədə ardıcıl işlər aparıldığını diqqətə çatdırıb. Bu gün Azərbaycanda bu sahədə müəyyən təcrübə əldə olunduğunu deyən komitə sədri, bununla bağlı hüquqi bazanın yaradıldığını və qanunlarda bu məsələnin təsbit edildiyini bildirib.

Dünya Əngəllilər Vəqfinin (WDU) vitse-prezidenti Necdet Öztürk dünya əhalisinin 15 faizinin fiziki məhdudiyyətli olduğunu diqqətə çatdıraraq, onların təhsil hüququnun qorunmasının vacibliyini qeyd edib. İnklüziv təhsilin xüsusiyyətlərindən danışan N.Öztürk bu sahədə dünyanın qabaqcıl universitetlərinin təcrübəsindən faydalanmağı tövsiyə edib,

beynəlxalq standartları açıqlayıb. O, inklüziv təhsildə UNEC modelinin çox uğurlu olacağına əminliyini ifadə edib.

Əlilliyi olan şəxslərin məşğulluğunun təmin olunmasında ali təhsilin olmasını vacib şərtlərdən biri kimi qiymətləndirən Azərbaycan Əlil Təşkilatları İttifaqının prezidenti Davud Rəhimli bu istiqamətdə universitetlərin üzərinə böyük məsulliyyət düşdüyünü qeyd edib. O, inklüziv təhsildə problemlərin aradan qaldırılması ilə bağlı layihələrin həyata keçirildiyinə diqqət çəkərək, UNEC də daxil olmaqla, ölkənin 6 ali təhsil müəssisəsində beynəlxalq təcrübəyə əsaslanan mərkəzlərin yaradıldığını vurğulayıb.

Ombudsman Aparatının Hüquqi maarifləndirmə sektorunun müdiri, Ombudsmanın əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi üzrə müşaviri Müqalib Mahmudov Azərbaycan əhalisinin 6 faizinin əlil olduğunu bildirərək, bunun MDB məkanında ən aşağı göstərici olduğunu diqqətə çatdırıb. UAE Zayed Sosial Müdafiə Milli təşkilatının tədris sektorunun baş təlimçiləri Şaron Keqan və Tina merk inklüziv təhsil sahəsində öz təcrübələrini paylaşıblar. UNEC-in Əlilliyi olan tələbələr üçün mərkəzinin koordinatoru Sevinc Məhsimova mərkəzin fəaliyyətindən danışıb.

Konfrans çərçivəsində UNEC ilə Azərbaycan Əlil Təşkilatları İttifaqı arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Sənəddə UNEC-də əlilliyi olan şəxslərin abilitasiya və reabilitasiyası məqsədi ilə birgə effektiv pedaqoji prosedurların hazırlanması nəzərdə tutulub. Eyni zamanda birgə layihə, konfrans, seminar, təlimlərin təşkil edilməsi və digər məsələlər əks olunub.

Üç gün davam edəcək konfransda xarici və yerli mütəxəssislərin inklüziv ali təhsilin bütün istiqamətləri üzrə təlimləri təşkil ediləcək.

Konfrans UNEC, Dünya Əngəllilər Vəqfi (WDU), Azərbaycan Əlil Təşkilatları İttifaqı və Müstəqil Həyat İnkişaf və Dəstək Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilir.

UNEC – Azərbaycan Dövlət İqtisad Universiteti — Dünya Əngəllilər Vəqfinin vitse-prezidenti: "İnklüziv təhsildə UNEC modelinin uğurlu olacağına əminəm"